**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# S Ə R Ə N C A M

**“Azərbaycan Respublikasının xarici ölkələrlə əməkdaşlığı üzrə birgə komissiyaların Azərbaycan tərəfinin 2025-ci ildə görüləcək işlər barədə illik fəaliyyət planlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 30 yanvar tarixli 54s nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə**

“Azərbaycan Respublikasının xarici ölkələrlə əməkdaşlığı üzrə birgə komissiyaların Azərbaycan tərəfinin 2025-ci ildə görüləcək işlər barədə illik fəaliyyət planlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 30 yanvar tarixli 54s nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 30 yanvar tarixli 54s nömrəli Sərəncamı ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfinin 2025-ci il üzrə Fəaliyyət Planı”nda icrası Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılmış işlər üzrə icraçı dövlət orqanlarının Siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan dövlət orqanları görülmüş işlərin nəticəsi və icra vəziyyəti barədə yarımildə bir dəfə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etsinlər.

3. Bu Sərəncamın icrası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Qanunvericiliyin və proqramların icrasına nəzarət şöbəsinə həvalə edilsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “2” aprel 2025-ci il

№ 35s

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 aprel tarixli 35s nömrəli Sərəncamı ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 30 yanvar tarixli 54s nömrəli Sərəncamı ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfinin 2025-ci il üzrə Fəaliyyət Planı"nda icrası Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılmış işlər üzrə icraçı dövlət orqanlarının**

**S İ Y A H I S I**

| № | Fəaliyyət istiqamətləri | Görüləcək işlər | İcra müddəti | İcraçı qurum |
|---|---|---|---|---|
| 1. | **Ticarət, investisiya və sənaye** | Türkiyə Respublikasının sərhəd ticarəti mexanizminin təbliği çərçivəsində yerli və türk iş adamları ilə təmasların intensivləşdirilməsi | **İl ərzində** | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi |
| 2. | | Türkiyə bazarı üçün uyğun olan muxtar respublika mənşəli məhsulların siyahısının hazırlanaraq Iğdır və Qars şəhərlərinin Sənaye və Ticarət palatalarına və ya aidiyyəti qurumlara göndərilməsi | | |
| 3. | | Hər iki bölgənin iş adamları arasında ikili görüşlərin (B2B, Biznes Forum) keçirilməsi | | |
| 4. | | Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasının yaxın bölgələrində Naxçıvan mənşəli məhsulların sərgisinin keçirilməsi | | |
| 5. | | Türkiyə Respublikasının yaxın bölgələrindən olan iş adamlarından ibarət alıcı heyətin (alım heyəti) muxtar respublikaya səfərinin təşkili | | |
| 6. | **Energetika** | Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında elektrik enerjisi mübadiləsi imkanlarının araşdırılması ilə əlaqədar yaradılmış işçi qrupu səviyyəsində qarşılıqlı fəaliyyətin davam etdirilməsi | | Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti |
| 7. | | Elektrik enerjisinin ixracı məqsədilə tezlik tənzimlənməsinin Türkiyə Respublikasının enerji sistemi vasitəsilə aparılması və Naxçıvan Muxtar Respublikasının enerji sisteminin ENTSO-E (Avropa Elektrik ötürmə Sistemləri Operatorları Assosiasiyası) şəbəkəsinə qoşulması üçün tədbirlər görülməsi istiqamətində işlərin icrası | | |